# Yüreğinden

— *Doktor-Yazar İlhamə Müslümova* · 22 Kasım 2024



Baxma ki ayrıyıq, darıxırsansa,
Arada dolan gəl, keç ürəyimdən...
Qəriblik eləmə, öz evin kimi
Sevdiyin bir küncü seç ürəyimdən...

Sənsiz qurumadı gözümün yaşı,
Ayrılıqdan olmaz ömür yoldaşı,
Sənin də yanırsa bağrının başı,
Əyil, bircə ovuc iç ürəyimdən ..

Yoxdu bundan pisi, yoxdu o yanı...
Yetər qurutmağa yanğım dəryanı...
Həsrətin kol-kosu basıb hər yanı ,
Gəl, öz əllərinlə biç ürəyimdən ...

Baxma ki hicranın  qəddimi əyər,
Bilsəm ki dönərsən, hicrana dəyər...
Dönməyə ümidin yoxdursa əgər,
Götür xatirəni, köç ürəyimdən...

Dr.İlhamə Müslümova